AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

22 YANVAR 2019-cu il ÇƏRŞƏNBƏ AXŞAMI № 16 (6343) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Azərbaycan Prezidenti İlham Əliyev 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad edib







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad ediblər.**

AZƏRTAC xəbər verir ki, Qara Yanvar hadisələrindən 29 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 29 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının ovaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.

Keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən təcavüzkar Ermənistanı açıq-aşkar dəstəklənməsinə və respublikanın ozamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxardı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələndi. Buna baxmayaraq, Azərbaycanın ovaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən yapışmaqda davam etdilər.

Onlardan fərqli olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da Ulu Öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.

Əslində, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcək.

Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Keçmiş SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.

Azərbaycanın azadlığı uğrunda canından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, əzizləri də hər zaman dövlət qayğısı ilə əhatə olunub. Eləcə də 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı hər zaman dövlətimizin başçısının diqqətindədir. 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilib. Şəhid ailələrinin pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı mükəmməl qanunvericilik bazası yaradılıb. Dövlətimizin başçısı bu istiqamətdə sərəncam və fərmanlar verib. Bundan başqa, əlillərin reabilitasiyası üçün respublikada yeni sağlamlıq mərkəzləri inşa olunub. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir.

* * *

Yanvarın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldilər.

Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycan Respublikasının dövlət himni səsləndi.

* * *

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etdilər.

* * *

Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov və Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev iştirak ediblər.

**AZERTAC**



## Meksika Birləşmiş Ştatlarının Prezidenti Zati-aliləri cənab Andres Manuel Lopes Obradora

Hörmətli cənab Prezident,

İdalqo ştatında boru kəmərində baş vermiş partlayış və yanğın nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Meksika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 21 yanvar 2019-cu il.**

## H.M.İsmayılovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan teatr və kino sənətinin inkişafında xidmətlərinə görə Hacı Məcid oğlu İsmayılov "Şöhrət" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 21 yanvar 2019-cu il.**

# Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri

## Davosda Dünya İqtisadi Forumunun prezidenti ilə görüş







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfəri başlayıb.**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, dövlətimizin başçısı yanvarın 21-də Davosda Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ilə görüşüb.

Görüşdə Azərbaycan Hökuməti və Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında ilk dəfə olaraq əməkdaşlığın təməli qoyuldu. Bu məqsədlə Azərbaycan Prezidenti İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Borge Brende arasında əməkdaşlıq sazişinin təntənəli mübadiləsi həyata keçirildi.

Söhbət zamanı Dünya İqtisadi Forumunun prezidenti Borge Brende Prezident İlham Əliyevi yenidən Davosda görməkdən məmnunluğunu bildirdi və dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın dördüncü sənaye inqilabına doğru qətiyyətli addımlar atdığını qeyd etdi. Borge Brende son iyirmi ildə Bakının sürətlə tanınmaz dərəcədə dəyişdiyini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycan Hökuməti və Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında əməkdaşlıq sazişinin vacibliyini qeyd edərək dedi ki, bu sənəd bizim tərəfdaşlıq ruhumuzu və qarşılıqlı səylərimizi davam etdirməkdə istəkli olduğumuzu nümayiş etdirir. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan dördüncü sənaye inqilabının hədəflərinin həyata keçirilməsində çox fəal iştirak edəcək. Keçən il Azərbaycanda qeyri-neft sektorunda sənaye istehsalının 9,1 faiz artdığını vurğulayan Prezident İlham Əliyev əminliklə bildirdi ki, biz bu vacib layihədə yaxşı tərəfdaşlar olacağıq.

Prezident İlham Əliyev növbəti dəfə Dünya İqtisadi Forumunda iştirakından və Forumla Azərbaycan arasında əməkdaşlıq əlaqələrinin yüksək səviyyədə olmasından məmnunluğunu ifadə etdi. Forumun dünyada gedən transformasiya prosesinin yeni təmayülləri və çağırışların müzakirəsi baxımından əhəmiyyətini vurğulayan dövlətimizin başçısı Azərbaycanın öz inkişaf strategiyasını yenilənən beynəlxalq və regional təmayüllər nəzərə alınmaqla qurduğunu bildirdi.

Prezident İlham Əliyev ölkəmizdə aparılan islahatlar, inkişaf prosesləri barədə məlumat verdi, böyük nəqliyyat və infrastruktur layihələrinin, o cümlədən Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri ilə bağlı layihələrin, enerji layihələrinin reallaşdırılmasının həm ölkəmiz, həm də region üçün əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanda biznes mühitinin daha da inkişaf etdirilməsi istiqamətində aparılan islahatlar barədə məlumat verdi.

Borge Brende Azərbaycan ilə Dünya İqtisadi Forumu arasında əməkdaşlıqdan və ölkəmizin bölgədə oynadığı roldan məmnunluğunu ifadə etdi. Bildirdi ki, Azərbaycanın qonşu və region dövlətləri ilə iqtisadi əməkdaşlığının və ölkəmizin güclənən iqtisadiyyatının bölgə ölkələrinin inkişafında əhəmiyyətli rolu var. Dünya İqtisadi Forumu bu rolu qiymətləndirir.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

## Prezident İlham Əliyev Davosda "Rossiya 1" televiziya kanalına müsahibə verib



**Yanvarın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda "Rossiya 1" televiziya kanalına müsahibə verib.**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, dövlətimizin başçısı dünyada neftin qiymətinin vəziyyəti, beynəlxalq münasibətlər və digər məsələlərlə bağlı sualları cavablandırıb.

**AZƏRTAC**

## Azərbaycan Prezidenti İlham Əliyev Davosda Çinin CGTN televiziyasına müsahibə verib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Çinin CGTN (China Global Television Network) televiziya kanalına müsahibə verib.**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, dövlətimizin başçısı müsahibədə Azərbaycanda enerji sektorunun, iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına, ölkəmizin həyata keçirdiyi qlobal enerji və infrastruktur layihələrinə, respublikamızın "Bir kəmər-bir yol" layihəsində iştirakına, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə, Azərbaycan-Çin ikitərəfli münasibətlərinə və digər məsələlərə toxundu.

Sonra Prezident İlham Əliyev CGTN televiziya kanalının xatirə kitabına ürək sözlərini yazdı.

**AZƏRTAC**

## Azərbaycan Prezidenti İlham Əliyev məhkum Mehman Hüseynovun işinin obyektiv və ədalətli araşdırılması ilə bağlı tapşırıq verib

**Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi Fuad Ələsgərov hazırda cəza çəkən Mehman Hüseynovun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciəti ilə bağlı AZƏRTAC-a açıqlama verib.**

Fuad Ələsgərov deyib ki, məhkum Mehman Hüseynov 2019-cu il yanvarın 20-də Azərbaycan Respublikasının Prezidentinə müraciət edib. Müraciətdə o, barəsində aparılan istintaqın obyektivliyinin təmin edilməsi və ədalətli qərar qəbul olunması üçün Azərbaycan Respublikası Prezidentinin müdaxilə etməsini xahiş edib.

Bundan öncə, 2019-cu il yanvarın 18-də Mehman Hüseynovun məsələsi ilə əlaqədar bir qrup hüquq müdafiəçisi də Azərbaycan Respublikasının Prezidentinə müraciət ünvanlamışdır. Hüquq müdafiəçiləri baş vermiş insidentlə əlaqədar süni şəkildə ajiotaj yaradıldığını, yalan məlumatların yayıldığını, yanlış ictimai rəy formalaşdırmağa cəhdlər edildiyini qeyd etmiş, Azərbaycan Respublikası Prezidentinin yüksək humanizm prinsipinə daim sadiqliyini xüsusi vurğulayaraq, Mehman Hüseynovun barəsində də mərhəmət göstərilməsini xahiş etmişlər.



Müraciətlər Azərbaycan Respublikası Prezidentinin diqqətinə çatdırılıb və cənab Prezident bu müraciətlərə dərhal reaksiya verib. Möhtərəm Prezident məhkumun gənc olmasını, artıq iki ilə yaxın cəza çəkdiyini, ailə vəziyyətini və atasının yaşlı olduğunu nəzərə alaraq, Mehman Hüseynovun işində humanizm prinsipinin önə çəkilməsini, araşdırmanın obyektiv və ədalətli olması üçün qanunla nəzərdə tutulmuş bütün zəruri tədbirlərin görülməsini Azərbaycan Respublikasının baş prokuroruna tövsiyə edib. Eyni zamanda, cənab Prezident hadisənin iştirakçılarını barışığa doğru addımlar atmağa dəvət edib.

Mehman Hüseynovla bağlı əvvəllər də humanist yanaşmanın şahidi olmuşuq. Belə ki, o, cəza çəkdiyi müddətdə ağır xəstəlikdən sonra vəfat etmiş anasının yas mərasimində iştirak etməyə buraxılmışdır.

Azərbaycan Respublikasının Prezidenti hər zaman bu cür müraciətlərə həssaslıqla yanaşır, öz fəaliyyətində daim ədalət və humanizm prinsiplərini rəhbər tutur və bütün dövlət məmurlarından da eyni yanaşmanı tələb edir. Həmin siyasətin təzahürü kimi onlarla amnistiya aktlarını, əfv haqqında sərəncamları göstərmək olar. Cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı cənab Prezidentin son təşəbbüsləri minlərlə məhkumun azadlığa çıxmasına zəmin yaratmışdır.

**AZƏRTAC**

*Fayez bin Abdulla Əl-Şəhri:*

## Səudiyyə Ərəbistanı Azərbaycanla bütün sahələrdə əlaqələrin inkişafı üçün səy göstərir

**Yanvarın 21-də Milli Məclisin sədri Oqtay Əsədov Səudiyyə Ərəbistanı Şura Məclisinin Azərbaycanla parlamentlərarası dostluq komitəsinin sədri Fayez bin Abdulla Əl-Şəhrinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov Azərbaycanın Səudiyyə Ərəbistanı ilə əlaqələrin yüksək səviyyədə inkişafında maraqlı olduğunu deyib. Sədr qeyd edib ki, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında münasibətlərin inkişafında Prezident İlham Əliyevin bu ölkəyə səfərlərinin böyük rolu olub. Bu görüşlər zamanı ölkələrimiz arasında 20-yə yaxın sənəd imzalanıb, hazırda 11 sənəd imzalanmaq üçün hazırlanır. Bütün bu sənədlər münasibətlərimizin hüquqi bazasını təşkil edir.

İqtisadi əlaqələrin inkişafından söz açan Milli Məclisin sədri bu sahədə əməkdaşlığın daha da dərinləşməsinin əhəmiyyətini vurğulayıb. O bildirib ki, hazırda Azərbaycanda Səudiyyə Ərəbistanının 16 şirkəti fəaliyyət göstərir. Azərbaycanda biznes mühitinin çox yaxşı səviyyədə olduğunu diqqətə çatdıran Oqtay Əsədov indiyədək ölkəmizə 250 milyard dollar investisiya qoyulduğunu deyib.



Parlamentlərarası əlaqələrin razılıq doğurduğunu söyləyən Milli Məclisin sədri dostluq qruplarının fəaliyyətini yüksək qiymətləndirib.

Oqtay Əsədov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində ölkəmizin ədalətli mövqeyini dəstəklədiyinə və işğalçılıq siyasəti yürüdən Ermənistanla indiyədək diplomatik münasibətlər qurmadığına görə Səudiyyə Ərəbistanına təşəkkürünü bildirib.

Dostluq komitəsinin sədri Fayez bin Abdulla Əl-Şəhri qeyd edib ki, Səudiyyə Ərəbistanı Azərbaycanla bütün sahələrdə əlaqələrin inkişaf etdirilməsi üçün səy göstərir. O cümlədən Səudiyyə Ərəbistanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlar çərçivəsində davamlı olaraq dəstəkləyir.

Görüş qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi ilə davam etdirilib.

**AZƏRTAC**

# *Hafiz PAŞAYEV:* Biz həmişə müstəqilliyimiz uğrunda mübarizəyə hazır olmalıyıq



**Xalqımızın azadlıq mübarizəsi tarixinə oyanış günü kimi düşən Qara Yanvar hadisələrini gənclər heç zaman unutmamalıdır.**

AZƏRTAC xəbər verir ki, bunu ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev tələbələrə müraciətində vurğulayıb. O bildirib ki, tarixi unutmaq xalqların qarşısına yeni faciələrə səbəb ola bilər. Millətimizin 1980-ci illərin sonunda başladığı azadlıq uğrunda mübarizəsində bu qədər ağır hadisələrdən keçməsinin səbəblərindən biri də 1918-ci ilin faciəvi hadisələri barədə kifayət qədər məlumatlı olmamağımız və onları düzgün qiymətləndirə bilməməyimiz idi. Rektor deyib: "Biz, həmişə müstəqilliyimiz uğrunda mübarizəyə hazır olmalıyıq. Bir gəncin dövlətinə verə biləcəyi ən böyük töhfə onun təhsilli olmasıdır. Güclü kadrları olan ölkənin mövqeyi də güclüdür. ADA məzunları yeni dövrün çağırışlarına hazır olmalıdırlar".

ADA Tələbə Şurasının təşkil etdiyi "20 Yanvar: qanlı yaddaşımız" tədbirində tələbələr qarşısında, həmçinin tarix elmləri doktoru, Milli Məclisin deputatı, professor Musa Qasımlı da çıxış edib. O, Qanlı Yanvar hadisələrinin siyasi təhlilini verərək sovet ordu hissələrinin Bakıda mülki əhaliyə qarşı silahlı kütləvi qırğın törətməsini SSRİ rəhbərliyinin ağır cinayəti adlandırıb. Xatırladıb ki, hadisədən bir gün sonra Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mətbuat konfransında sovet imperiyasının riyakar siyasətini ifşa edən, baş verənlərə cəsarət və qətiyyətlə düzgün qiymət verən ümummilli lider Heydər Əliyev olub.



Tədbirdə Gənc Tamaşaçılar Teatrının bədii heyətinin üzvləri tərəfindən "Arzu və Murad" pyesindən səhnə nümayiş olunub. Səhnə əsəri Xocalı şəhərinin işğalı zamanı əsir düşmüş gənc qızın faciəvi taleyindən, qaçqınlıq şəraitində yaşayan insanların saf hisslərindən, psixoloji və mənəvi durumundan bəhs edir.

Sonda ADA tələbələri şəhidlərin xatirəsinə hazırlanan bədii proqramla çıxış ediblər. Tədbir Azərbaycan bayrağının dalğalandırılması ilə yekunlaşıb. Daha sonra ADA Universitetinin yerli və xarici müəllim və tələbələrindən ibarət nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edərək 20 Yanvar şəhidləri və Azərbaycanın müstəqilliyi uğrunda canlarını qurban verən digər şəhidlərin xatirəsinə ehtiramlarını ifadə ediblər.

**AZƏRTAC**

# 20 Yanvar xalqımızın azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzidir

**Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi, Azərbaycanın Milli Qəhrəmanı, general-polkovnik Mədət Quliyev, Xidmətin əməkdaşları, təhlükəsizlik orqanlarının veteranları və DTX-nin Heydər Əliyev adına Akademiyasının kursantları 20 Yanvar faciəsinin 29-cu ildönümü ilə bağlı Şəhidlər xiyabanına gələrək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının məzarları üzərinə tər qərənfillər düzüb, şəhidlərimizin unudulmaz xatirəsinə hörmət və ehtiramlarını bildiriblər.**



DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Dövlət Təhlükəsizliyi Xidmətinin şəxsi heyəti adından "Əbədi məşəl" abidə kompleksinin önünə əklil qoyulub.

Dövlət Təhlükəsizliyi Xidmətinin akt zalında davam edən anım tədbiri faciə qurbanlarının, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş oğul və qızlarımızın xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb. Dövlət himni səsləndirilib.

Tədbirin sonunda sənədli film nümayiş olunub.

Qanlı Yanvar hadisələrindən 29 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi.

Doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının ovaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.

Azərbaycana qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlığından və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçə və meydanlarına çıxaraq buna qəti etirazını bildirən xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməyən faciəyə səbəb oldu. Milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxan dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlıq əleyhinə törədilən ən ağır cinayətlərdən biri kimi bəşər tarixinə yazıldı. Böyük itkilər, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi mərkəzi sovet hakimiyyəti başda olmaqla cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, azadlığına, müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, əyilməzliyini və məğrurluğunu nümayiş etdirdi.

20 Yanvar Azərbaycan xalqının tarixində, sadəcə, ağrı və acı ilə xatırlanacaq gün deyil. 20 Yanvar Azərbaycan xalqının şan və şərəf günüdür. Xalq həmin gün üstünə şığıyan dəhşətli kabusa, sovet hərbçilərinin qorxunc qaragüruhuna qarşı sinəsini sipər etdi, özünün mənliyini və mətinliyini göstərdi. Məhz həmin hadisələr bilavasitə nümayiş etdirdi ki, Azərbaycan xalqı pozulan hüquqlarının, suverenliyinin bərpa olunması uğrunda savaşmaq əzminə sahibdir.

Təəssüf ki, həm SSRİ, həm də ovaxtkı Azərbaycan rəhbərliyi bu qanlı cinayətin bilavasitə təşkilatçısı və iştirakçısı olduğundan nəinki onun açılması və cinayətkarların məsuliyyətə cəlb olunmasından ötrü tədbirlər görmədi, əksinə, bu vəhşiliyi gizlətmək üçün əlindən gələni etdi.

20 Yanvar faciəsindən bir gün sonra ulu öndər Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək xalqımızın kədərini bölüşməsi və qırmızı rejimin ölkəmizdə həyata keçirdiyi qanlı aksiyanı ifşa etməsi o dövrdə xalqımıza bir dayaq, bir təsəlli oldu. Xalq o ağır günlərdə köməksiz olmadığını hiss etdi.

Əlbəttə, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcək.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra - 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar - Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.

Ulu Öndərin siyasi xəttinin layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu strategiya sayəsində regionun lider dövlətinə çevrilmiş Azərbaycan misli görünməmiş zəfərlər qazanır, respublikanın beynəlxalq nüfuzu durmadan yüksəlir. Dövlətimizin başçısı çoxşaxəli fəaliyyətində tarixilik və müasirlik amilini əsas tutaraq milli-mənəvi dəyərlərimizin, qan yaddaşımızın qorunub saxlanılması və inkişaf etdirilməsinə böyük diqqət yetirir. Dövlət müstəqilliyinin əldə olunmasında və möhkəmləndirilməsində rolu olan insanlara xüsusi qayğı ilə yanaşır.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycan gündən-günə daha da qüdrətlənir. Ordumuz gücləndikcə torpaqlarımızın erməni işğalından azad ediləcəyi gün də yaxınlaşır.

**AZƏRTAC**

# Yanvarın 20-də Şəhidlər xiyabanını, şəhidlərin xatirə komplekslərini yüz minlərlə insan ziyarət edib



**1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə şəhid qanları ilə Azərbaycanın yeni tarixi yazıldı. 20 Yanvar bu tarixin həm kədər, həm də qürur doğuran səhifəsidir.**

AZƏRTAC xəbər verir ki, yanvarın 20-də səhər saatlarından Şəhidlər xiyabanına insan axını başlayıb. İnsanlar bu müqəddəs məkanda uyuyan qəhrəmanların xatirəsini ehtiramla yad ediblər. Buraya Bakı sakinləri ilə yanaşı, paytaxtımızın qonaqları və bölgələrdən gələn insanlar da gəlmişdilər.

Bu dəhşətli faciədən 29 il ötsə də, baş verənlər unudulmur. Vətən uğrunda canından keçən oğul və qızlarımızın qəhrəmanlığı dillərdə dastan olub. Çünki azadlığa gedən yolumuzda ilk cığırları onlar açıblar. Dövlət müstəqilliyimizin bərpası, azad həyatımız üçün ilk növbədə, şəhidlərə borcluyuq.

1990-cı il yanvarın 21-də ümummilli lider Heydər Əliyev həyatını təhlükəyə ataraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi, xalqımızın kədərini bölüşdü və kommunist rejiminin respublikamızda həyata keçirdiyi qanlı aksiyasını qətiyyətlə pisləyən bəyanatla çıxış etdi. Ulu Öndərin bu addımı xalqımıza təpər və güc verdi, ona dayaq və təsəlli oldu.

20 Yanvar faciəsinə dövlət səviyyəsində ilk siyasi-hüquqi qiymət də dahi şəxsiyyət Heydər Əliyev tərəfindən verildi. Şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üçün lazım olan bütün tədbirlər görüldü: Şəhidlər xiyabanda möhtəşəm "Əbədi məşəl" abidə-kompleksi ucaldıldı, 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi, "20 Yanvar şəhidi" fəxri adı təsis olundu, şəhid ailələrinin, 20 Yanvar hadisələrində əlil olan şəxslərin sosial müdafiəsi gücləndirildi.

Bu siyasəti davam etdirən Prezident İlham Əliyevin Sərəncamı ilə Şəhidlər xiyabanı vahid kompleks kimi yüksək səviyyədə yenidən quruldu və abadlaşdırıldı. Həmçinin dövlətimizin başçısının tapşırığı ilə Bakıda "20 Yanvar" dairəsində memorial abidə kompleksi yaradıldı.

20 Yanvar əlilləri və şəhid ailələri dövlətin hərtərəfli qayğısı ilə əhatə olunublar. Əlillərin reabilitasiyası üçün sağlamlıq mərkəzləri yaradılıb, 20 Yanvar əlilləri və şəhid ailələri dövlət büdcəsi hesabına mənzillə təmin edilib, onlara Prezident təqaüdü təyin olunub.

AZƏRTAC-ın müxbirləri 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar Bakıda və respublikamızın bölgələrində keçirilən anım mərasimlərinin iştirakçılarından müsahibələr alıblar. Müsahibələri təqdim edirik.

**Anar Ağayev** *(Aprel döyüşlərinin iştirakçısı):* Şəhidlər xiyabanını tez-tez ziyarət edirəm. Şəhidlərimizin xatirəsi hər birimiz üçün müqəddəsdir. Çünki onlar Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarını qurban veriblər. Qanlı Yanvar hadisələrindən atam həmişə ürəkağrısı ilə danışardı. Həmin gecə atam öz dayısı ilə birlikdə yaşadıqları evin həyətində atəşə tutulub. İmperiya ordusu əsgərinin gülləsi dayısının həyatına son qoymuş, atam isə təsadüfən sağ qalmışdı. Mən şanlı Aprel döyüşlərində iştirak etmişəm və bundan qürur duyuram. Həmin döyüşlər zamanı Azərbaycan Ordusu gücünü bütün dünyaya göstərdi. Ermənistan və onun havadarları başa düşdülər ki, biz torpaqlarımızın işğalı ilə heç vaxt barışmayacağıq. İnanırıq ki, torpaqlarımız tezliklə düşmən tapdağından azad ediləcək. Şəxsən mən Vətən yolunda döyüşməyə həmişə hazıram.

**Məşuqə Məmmədova** *(Füzuli rayon sakini):* Qanlı Yanvar faciəsi törədilən zaman Azərbaycan informasiya blokadasına alınmışdı. Radio, televiziya susdurulmuş, mətbuatın nəşrinə qadağa qoyulmuşdu. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda nə baş verdiyindən biz də xəbərsiz idik. Azərbaycan xalqına qarşı törədilən bu qanlı cinayəti ilk dəfə dünyaya bəyan edən ümummilli lider Heydər Əliyev oldu. O, böyük cəsarət və siyasi iradə nümayiş etdirərək yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində mətbuat konfransı keçirdi, 20 Yanvar faciəsinin mahiyyətini açıqladı. Bu cinayəti törədənləri ittiham etdi. Qəhrəman Vətən övladları öz həyatları bahasına 20 Yanvarı şərəf və ləyaqət tarixinə çevirdilər. Onlar hər bir azərbaycanlının ürəyində özlərinə əbədi abidə ucaltdılar. Bu gün Şəhidlər xiyabanında yanan əbədi məşəl şəhidlərin ruhuna xalqımızın dərin ehtiramının ifadəsidir.

**Rəhim Allahverdiyev** *(Əməkdar məşqçi):* 20 Yanvar faciəsini ürəkağrısı ilə xatırlasaq da, bu tarixi, eyni zamanda, Azərbaycan xalqının şanlı günü kimi qeyd edirik. Xalqımız həmin gün üstünə şığıyan tanklardan, sinəsinə tuşlanan güllələrdən qorxmadı, azadlıq mübarizəsini axıradək davam etdirərək müstəqilliyə qovuşdu. 1990-cı ilin 20 Yanvar günü şəhid olan cəsur oğul və qızlarımız ölümün gözünə dik baxıb "Vətən sağ olsun!" - dedilər. Belə övladları olan xalq məğlubedilməzdir. Bu gün Şəhidlər xiyabanına axışan 10 minlərlə insan onların xatirəsinə dərin ehtiramını bildirir. Bu gün dünyanın ən sürətlə inkişaf edən ölkələrindən biri olan Azərbaycanda yaşayıb-yaradan gənc nəsil müstəqilliyimizin şəhid qanları bahasına əldə olunduğunu bilməlidir. Şəhidlər xiyabanı xalqımızın and yeri olaraq qalacaq.

**Şövqü Bünyadzadə** *(20 Yanvar Fondunun sədri):* Ulu öndər Heydər Əliyev bu qanlı hadisələrə siyasi-hüquqi qiymət verməklə yanaşı, "20 Yanvar şəhidi" fəxri adını da təsis edib. Ümummilli Lider bu faciənin qurbanlarının sosial müdafiəsini daim xüsusi diqqət mərkəzində saxlayırdı. Dahi şəxsiyyət hakimiyyətdə olduğu dövrdə şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında, həlak olanların ailələrinə yardım göstərilməsi istiqamətində bir çox fərman və sərəncamlar imzalayıb. Şəhid ailələrinin və əlillərin sosial müdafiəsi ilə bağlı dövlət siyasəti hazırda Ulu Öndərimizin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Şəhid ailələrinə və əlillərə dövlət tərəfindən həm maddi, həm də mənəvi dəstək göstərilir. Şəhid ailələri dövlət tərəfindən birdəfəlik müavinət və təqaüd alır, dövlət büdcəsi hesabına mənzil və avtomobillərlə təmin edilirlər. Onların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə dövlətimizin başçısının son dövrlərdə imzaladığı fərmanlar göstərilən diqqət və qayğının əyani nümunəsidir. Bütün bunlara görə şəhid ailələri adından Prezident İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk.



**Nübar Novruzova** *(Xalq artisti):* Şəhidlərimizin əziz xatirəsi daim hörmətlə anılacaq. 20 Yanvar faciəsi baş verəndə mən tələbə idim və o günləri yaxşı xatırlayıram. Yanvarın 20-də eşitdim ki, tanklar bacımın yaşadığı evi güllələyə tutub və onlardan xəbər tutmaq üçün küçəyə çıxdım. "Xəzər" kinoteatrının yaxınlığında tanklar dayanmışdı, yerdə şəhidlərimizin cəsədləri var idi. Hələ də inana bilmirəm ki, o canilər məni sağ buraxdı. O illər çox ağlayıb-sızlayırdım, xalqımızın düçar olduğu faciə məni sarsıtmışdı. Lakin indi bu günləri görüb deyirəm: biz çox xoşbəxt xalqıq ki, belə qəhrəman övladlarımız var.

**Firəngiz Mustafazadə** *(Azərbaycan Dillər Universitetinin tələbəsi):* Bu gün bizim üçün həm hüznlü, həm də şərəfli gündür. 29 il əvvəl yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusu dinc əhaliyə divan tutdu. Yüzdən çox oğul və qızlarımız o məşum gecədə qətlə yetirildi. Məhz o gecə tökülən qanlar hesabına ölkəmiz əsarətdən xilas oldu, yenidən dövlət müstəqilliyi əldə etdik. Şəhidlər xiyabanı ölümün gözünə dik baxan vətən övladlarının son mənzilidir. Azadlığımızın memarları, xalqı, vətəni canından çox sevən fədailər unudulmurlar. Xalqımız hər il 20 Yanvar qətliamının qurbanlarını yad edir. Təqdirəlayiq haldır ki, buraya gələnlər arasında azyaşlılar, məktəblilər də var. Şəhidlərimizin qəhrəmanlığı nəsildən-nəslə ötürülür, uşaqlar, yeniyetmələr, gənclər vətənpərvərlik ruhunda yetişirlər. Bu gün hər bir azərbaycanlı Vətən uğrunda son damla qanına kimi vuruşmağa hazır olmalıdır. Çünki işğal altındakı ərazilərimizi azad etməklə şəhidlərimizin ruhunu şad edə bilərik.

**Zaur Mirzəzadə** *(Dünya Azərbaycanlıları İctimai Maarif Mərkəzinin rəhbəri):* Qanlı Yanvar xalqımızın azadlıq mübarizəsi salnaməsinin ən parlaq səhifəsidir. Şəhidlərimizin qəhrəmanlığı gənclərə əsl vətənpərvərlik nümunəsidir. Vaxtilə güvənib etibar etdiyimiz sovet qoşunları 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda ağlasığmaz vəhşiliklər törədərək günahsız, əliyalın insanları qətlə yetirdi. Qanlı hadisənin ertəsi günü xalqımızın böyük oğlu Heydər Əliyev Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək bu vəhşiliyi qətiyyətlə pislədi, təşkilatçıların, günahkarların adlarını cəsarətlə dünyaya bəyan etdi. Qoy şəhidlərimiz rahat uyusunlar. Çünki onların axıtdıqları qan hədər getməyib. Azad Vətənimiz inkişaf edir, böyük uğurlara imza ataraq sabaha inamla addımlayır.

**Erkan Özoral** *(Türkiyənin Azərbaycandakı səfiri):* 20 Yanvar Azərbaycanın müstəqillik yolunda mühüm dönüş nöqtəsidir, onun tarixinə yazılan çox önəmli bir gündür. 29 il bundan əvvəl xalqın övladları Vətənin azadlığı naminə şəhid olublar. Bu günü həm Azərbaycan xalqı, həm də bütün türk dünyası milli qürur günü kimi qeyd etməlidir. 20 Yanvar günü biz qardaşlarımızı itirdik, onlar vətənləri uğrunda canlarını fəda etdilər. Eyni zamanda, Azərbaycanın müstəqilliyinə yol açdılar. Biz də həmin gün şəhid olanları ehtiramla anırıq.

**Hüseyn Başağa** *(Türkiyə vətəndaşı):* 20 Yanvar bütün türk dünyasının tarixində qanlı və şanlı bir səhifədir. 1990-cı ildə Azərbaycanın haqq səsini boğmaq üçün xalqa divan tutuldu. Hər birimiz bu günün ağrısını ürəyimizdə hiss edirik. Artıq beş ildir yanvarın 20-də Şəhidlər xiyabanına gəlirəm. 20 Yanvar hadisələri heç zaman unudulmamalıdır. Bu tarixi gənclərimizə, övladlarımıza çatdırmalı, şüurlara həkk etdirməliyik.

**Bilal Yəhyayev** *(Xaçmaz sakini, şəhid qardaşı):* Qardaşım Əfqan Yəhyayev 1992-ci ildə Xocavənd rayonunun Kuropatkino kəndi uğrunda gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olub. Bizim üçün bütün şəhidlərin xatirəsi əzizdir. 20 Yanvar hadisələri xalqımızın azadlıq və ərazi bütövlüyü uğrunda mübarizə tarixinin şanlı səhifələrindəndir. Həmin gecə insanlar sovet tanklarının qarşısına silahsız, əliyalın çıxmışdı. Biz şəhidlərimizlə fəxr edirik. Bu gün onların sayəsində müstəqil, qüdrətli Azərbaycanda yaşayırıq. Bu xiyabanda mənim qardaşımla yanaşı, yüzlərlə xaçmazlı şəhidin xatirəsi əbədiləşdirilib. Onların hamısı mənim üçün doğmadır. Biz gənclər şəhidlərimizin haqq yolunu davam etdirməyə hazır olmalıyıq. Düşməndən qisas almalı, işğal altındakı torpaqlarımızı erməni qəsbkarlarından azad etməliyik.

* * *

Bakıdakı Şəhidlər xiyabanında, bölgələrdəki xatirə kompleksləri önündə yaşanan izdihamı seyr etdikcə ümummilli lider Heydər Əliyevin sözləri bir daha yada düşür: "20 Yanvar faciəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır. Onların həlak olması bizim üçün, xalqımız üçün böyük itkidir. Ancaq, eyni zamanda, onların şəhid olması xalqımızın qəhrəmanlıq rəmzidir. O gecə tökülən qanlar Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üstündəki qandır".

Yanvarın 20-də bütün yollar Şəhidlər xiyabanında birləşirdi. Bu müqəddəs məkanı ziyarət edənlər arasında hər yaşda olan insanlar vardı. Onlar şəhid məzarları önündə həm kədər, həm də qürur hissləri keçirirdilər. Burada yaşanan izdiham xalqın qəhrəman Vətən övladlarının əziz xatirəsinə hörmət və ehtiramını bir daha parlaq şəkildə təcəssüm etdirirdi.

**AZƏRTAC**

# 20 Yanvar əlilləri və şəhid ailələri etibarlı sosial müdafiə sistemi ilə əhatə olunublar

Ümummilli lider Heydər Əliyev tərəfindən 20 Yanvar əlilləri və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsinə xüsusi diqqət və qayğı göstərilib. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumatda qeyd olunur ki, hələ ötən əsrin 90-cı illərində ulu öndərimizin müvafiq Fərmanına əsasən, "20 Yanvar şəhidi" fəxri adı təsis edilərək, 20 Yanvar şəhidlərinin ailələrinin və 1990-cı ilin Yanvar hadisələri zamanı əlil olmuş insanların dövlət qayğısı ilə əhatə olunması üçün mühüm işlərə başlanılıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu sosial siyasəti nəticəsində ölkəmizdə sosial cəhətdən həssas əhali qrupları, o cümlədən 20 Yanvar əlilləri və şəhid ailələri üçün etibarlı sosial müdafiə sistemi formalaşıb.

Hazırda Azərbaycan Respublikasının Prezidentinin təqaüdü olaraq, 20 Yanvar şəhidlərinin ailələri ayda 300 manat və 20 Yanvar əlilləri - I qrup əlillər 182 manat, II qrup əlillər 158 manat, III qrup əlillər 121 manat təqaüdlə təmin olunurlar. Prezidentin aylıq təqaüdü ilə bərabər, 20 Yanvar şəhidlərinin əmək pensiyası almaq hüququ olmayan ailə üzvlərinin hər birinə kommunal, nəqliyyat və digər xidmətlər üçün aylıq sosial müavinət, 20 Yanvar əlillərinə əlilliyə görə aylıq sosial müavinət və ya əmək pensiyası, həmçinin onların uşaqlarına müavinət ödənilir. Şəhid ailəsi üzvlərinə pensiya təyinatı zamanı əlavə üstünlük verilməklə, onların əmək pensiyasının baza hissəsinin üzərinə əlavə də hesablanır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ötən dövrdə müharibə əlilləri ilə bərabər, 20 Yanvar əlilləri və şəhid ailələrinin də mənzillə, eləcə də 20 Yanvar əlillərinin minik avtomobilləri ilə təminatı həyata keçirilib. 20 Yanvar əlilləri və şəhid ailələrinin ölkəmizin ali və orta ixtisas təhsil müəssisələrində ödənişli təhsil alan övladlarının təhsil haqqı dövlət büdcəsi hesabına ödənilir. Bununla yanaşı, hər il olduğu kimi, bu il də 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 20 Yanvar əlillərinə və 20 Yanvar şəhidlərinin ailələrinə birdəfəlik maddi yardımlar verilib.

Bu təbəqədən olan insanlar üçün qanunvericilik aktlarında bir sıra güzəşt və imtiyazlar da əksini tapıb. Qeyd olunanlarla yanaşı, əlilliyi olan şəxslərin tibbi-sosial reabilitasiyası işlərində də 20 Yanvar əlilləri daim diqqətdə saxlanılır.

**M.KAMAL,**
**"Respublika".**

# Səudiyyə Ərəbistanı parlamentinin nümayəndə heyəti Qafqaz Müsəlmanları İdarəsində olub



**Yanvarın 21-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Kral Abdulla Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzi (KAİCİİD) Direktorlar Şurasının üzvü şeyxülislam Allahşükür Paşazadə Səudiyyə Ərəbistanı Şura Məclisinin Azərbaycanla parlamentlərarası dostluq komitəsinin sədri Fayez bin Abdulla Əl-Şəhrinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə QMİ sədri ölkələrimiz arasında münasibətlərin inkişafından danışıb. Bildirib ki, Azərbaycanla Səudiyyə Ərəbistanı arasında dostluq, qardaşlıq münasibətləri mövcuddur.

Şeyxülislam Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin haqq işini müdafiə etdiyinə, işğalçı Ermənistanla diplomatik münasibətlər qurmadığına görə Səudiyyə Ərəbistanına təşəkkür edib. O, həmçinin həcc ziyarəti zamanı azərbaycanlılara göstərilən köməyə görə bu ölkənin rəhbərliyinə minnətdarlığını bildirib.

Qardaş Azərbaycana səfərdən məmnunluğunu bildirən Fayez bin Abdulla Əl-Şəhri deyib ki, səfərin məqsədi Azərbaycanla bütün istiqamətlərdə əlaqələrin daha da genişlənməsinə töhfə verməkdir. O, ölkələrimiz arasında əlaqələrin inkişafının məmnunluq doğurduğunu vurğulayıb.

Dostluq komitəsinin digər üzvləri Azərbaycanın sivilizasiyalararası və mədəniyyətlərarası dialoqa, həmçinin İslam Əməkdaşlıq Təşkilatında töhfələrini qeyd ediblər. Onlar Azərbaycanın sürətli inkişafından məmnunluqlarını bildirib, Bakının bir çox beynəlxalq tədbirlərə ev sahibliyi etdiyini vurğulayıblar. Qonaqlar Azərbaycandakı mövcud tolerantlığı və multikulturalizmi yüksək qiymətləndiriblər.

Görüşdə iştirak edən Milli Məclisin Azərbaycan-Səudiyyə Ərəbistanı parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Fəttah Heydərov ölkələrimiz arasında əlaqələrin inkişaf etdiyini vurğulayıb. O, sülhün, əmin-amanlığın bütün bəşəriyyət üçün önəmini qeyd edib, Azərbaycanda multikultural dəyərlərin inkişafı istiqamətində görülən işlərdən danışıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərə dair müzakirələr aparılıb.

AZƏRTAC

# AZƏRTAC ispan dilində xəbər yayımına başlayıb



**Azərbaycan Dövlət İnformasiya Agentliyi - AZƏRTAC yanvarın 21-dən ispan dilində xəbər yayımına başlayıb.**

İndiyədək agentlik 7 dildə - Azərbaycan, rus, ingilis, fransız, alman, ərəb və Çin dillərində xəbərlər yayırdı. İspan dilinin əlavə olunması ilə agentliyin informasiya yayımını həyata keçirdiyi dillərin sayı 8-ə çatıb. Bu dildə buraxılan xəbərlər AZƏRTAC-ın saytının ispan dili versiyasında dərc olunur.

Bununla bağlı agentlikdə təqdimat keçirilib. İdarə Heyətinin sədri Aslan Aslanov qeyd edib ki, ispan dilində informasiya resursunun yaradılması Azərbaycan reallıqlarının beynəlxalq aləmdə yayılması istiqamətində AZƏRTAC-ın atdığı daha bir uğurlu addımdır. AZƏRTAC bir sıra ispandilli ölkələrin xəbər agentlikləri - İspaniyanın EFE, Argentinanın Telam, Paraqvayın İP, Kubanın Prensa Latina agentlikləri ilə sıx əməkdaşlıq edir. Eyni zamanda, hazırda Kolumbiya və digər ispandilli ölkələrin aparıcı media qurumları ilə əməkdaşlıq müqaviləsinin imzalanması üçün danışıqlar aparılır. Bildirilib ki, Azərbaycanın siyasi, iqtisadi, mədəni və bir çox digər sahələrində uğurları, həmçinin ölkəmizdə keçirilən beynəlxalq tədbirlər barədə informasiyaların 400 milyonluq ispandilli auditoriyaya çatdırılmasında bu resursun böyük önəmi olacaq. “İspan dilində redaksiyanın yaradılması agentliyin ispandilli tərəfdaşları ilə informasiya mübadiləsini daha da gücləndirmək üçün yaxşı imkanlar açacaq. Bu, Azərbaycanla bağlı reallıqların böyük coğrafi məkanda yayılmasını təmin edəcək”, - deyə Aslan Aslanov bildirib.

İspan dilində informasiya bölməsinin müdiri Nuridə Aslanova agentliyin ispandilli veb-resursu haqqında məlumat verib. Qeyd olunub ki, ölkəmizin həyatının bütün sahələrinə - iqtisadiyyat, mədəniyyət, turizm, Azərbaycan tarixinə dair ispan dilində geniş informasiya bazası yaradılıb. Bu gündən başlayaraq ölkədə baş verən mühüm yeniliklər və hadisələr haqqında xəbərlər AZƏRTAC-ın saytının ispandilli versiyasında və sosial şəbəkələrdə yayılır.

Agentliyin buraxılış üzrə baş redaktoru Elman Qədirov, multimedia və informasiya resursları redaksiyasının baş redaktoru Elşən Şahbalayev ispan dilində xəbərlərin yayımının təşkili məsələlərindən, xəbərlərin hədəf auditoriyasına çatdırılması, xarici informasiya resurslarında və sosial şəbəkələrdə əlçatan olması üçün görülən və görülməli olan işlər barədə danışıblar.

İspan dili ingilis və Çin dillərindən sonra dünyada ən çox danışılan üçüncü dildir, 21 ölkədə rəsmi dil olaraq qəbul edilib və BMT-nin 6 rəsmi dilindən biridir. Dilin yayılma coğrafiyası əsasən Avropa, Şimali Amerika və Cənubi Amerika qitələridir. Bu baxımdan AZƏRTAC-ın ispan dilində xəbər yayması rəsmi dövlət tədbirləri, Azərbaycanın həyata keçirdiyi mühüm beynəlxalq və regional layihələr barədə məlumatların, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair həqiqətlərin daha geniş auditoriyaya çatdırılması, ispandilli ölkələrdə erməni lobbisinin antiazərbaycan təbliğatına qarşı informasiya mübarizəsinin aparılması işinə böyük fayda verəcək. Eyni zamanda, agentlik üzvü olduğu beynəlxalq qurumlar və tərəfdaşlıq etdiyi agentliklərlə ispan dilində xəbər mübadiləsi aparacaq.

AZƏRTAC

*General Məhəmməd Baqeri:*

# İran hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib

**İran hər zaman Azərbaycanın ərazi bütövlüyü və suverenliyini dəstəkləyib və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll olunmasının tərəfdarıdır. İran işğal edilmiş ərazilərin tezliklə azad edilməsini və qaçqınların öz doğma torpaqlarına qayıtmasını istəyir.**

AZƏRTAC xəbər verir ki, bu sözləri İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general Məhəmməd Baqeri Azərbaycana səfərinin yekunları haqqında yerli mətbuata verdiyi açıqlamada deyib.

General bildirib ki, Xəzəryanı dövlətlərin razılaşmasına əsasən Xəzər dənizində birgə hərbi təlimlər keçiriləcək. İran regionda sülhün və sabitliyin davamlı olmasında, bütün qonşularının, o cümlədən Azərbaycanda hökm sürən sabitliyin davamlı olmasında maraqlıdır.

Bakıda keçirdiyi səmərəli görüşlər haqqında məlumat verən M.Baqeri regional təhlükəsizlik, hərbi sahədə əməkdaşlıq, terrorçuluğa qarşı birgə mübarizə məsələlərinin müzakirə edildiyini bildirib. General səfərinin uğurlu olduğunu diqqətə çatdırıb və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin davam etdiriləcəyini deyib.

AZƏRTAC

*Dmitri Savelyev:*

# Biz rusiyalılar dərdinizə şərik çıxır və bu dəhşətli faciəni xatırlayırıq

**“Mən şəxsən öz adımdan və Azərbaycan parlamenti ilə qarşılıqlı fəaliyyət göstərən deputat qrupu adından 1990-cı ilin yanvarında baş vermiş müdhiş faciə ilə bağlı başsağlığı vermək istərdim”, - deyə Rusiya-Azərbaycan parlamentlərarası qrupun rəhbəri Dmitri Savelyev Azərbaycanın Moskvadakı səfirliyində “Qara Yanvar” qurbanlarının xatirəsinə həsr edilmiş tədbirdəki çıxışında bildirib.**

AZƏRTAC xəbər verir ki, deputat bir həftə əvvəl Bakıya səfəri zamanı Şəhidlər xiyabanını ziyarət etməsindən, həlak olanların başdaşılarında əks olunan simalarına diqqətlə baxmasından danışıb. “Onlar günahsız insanlar - kişilər, qadınlar, uşaqlar idi. Onlar həm azərbaycanlılar, həm ruslar, müxtəlif millətlərin nümayəndələri, Sovet İttifaqının vətəndaşları idilər. Onlar həmin gecə eyni amalla ədalətsizliyə qarşı etiraz etmək üçün çıxmışdılar”, - deyə deputat xatırladıb.

D.Savelyev hələ də bu hadisələrə lazımi siyasi qiymət verilmədiyini qeyd edib: “Əfsuslar olsun ki, bu dəhşətli fakta, SSRİ-nin o vaxtkı rəhbəri Mixail Qorbaçovun əməllərinə lazımi qiymət verilməyib. Mən fikirləşirəm, Sovet İttifaqının o vaxtkı lideri belə cinayətkar əmri necə verə bilərdi? Bu, xalqa qarşı cinayətkarlıqdır. Hazırda isə Nobel mükafatı laureatı Mixail Qorbaçov yaşayır və sağ-salamatdır. Əgər o vaxt dahi Heydər Əliyev Sovet İttifaqının rəhbəri olsaydı, bu, heç vaxt baş verməzdi. Yəqin ki, Sovet İttifaqı qorunub saxlanılardı, başqa bir ölkəyə çevrilə bilərdi”.



Siyasətçi vurğulayıb ki, hazırda bizim iki müstəqil dövlətimizə güclü liderlər rəhbərlik edir. Onlar buna bənzər faciələrə heç vaxt imkan verməzlər. “Biz rusiyalılar dərdinizə şərik çıxır və bu dəhşətli faciəni xatırlayırıq. Nə qədər ki, biz sizinlə bunu xatırlayırıq, dövlətlərimizin ərazisində bu cür faciələr heç vaxt baş verməyəcək”, - deyə D.Savelyev bildirib.

AZƏRTAC

# Parisdə 20 Yanvar şəhidlərinin xatirəsi anılıb

**Azərbaycanın Fransadakı səfirliyinin və UNESCO yanında daimi nümayəndəliyinin birgə təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 29-cu ildönümünə həsr olunmuş anım tədbiri təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə səfirlik, daimi nümayəndəliyin əməkdaşları, eləcə də bu ölkədəki diaspor üzvləri Paris yaxınlığındakı Sen-Klu qəbiristanlığına gedərək Paris Sülh Konfransının iştirakçısı olmuş Əlimərdan bəy Topçubaşovun və Ceyhun Hacıbəylinin məzarlarını ziyarət ediblər.

Müstəqilliyimizin ilk nümayəndələrinin qəbirləri üzərinə əklil qoyulub, Azərbaycanın müstəqilliyi və suverenliyi uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev Qanlı Yanvarın ildönümündə cümhuriyyət qurucularının qəbirlərinin ziyarət edilməsinin rəmzi məna daşıdığını bildirib. Qeyd edib ki, 20 Yanvar qəhrəmanları 100 il öncə əsası qoyulan müstəqilliyimizi bərpa etmək uğrunda həlak olublar.

Səfir 20 Yanvar hadisələrinə hüquqi qiymət verilməsində, müasir, müstəqil Azərbaycan dövlətinin qurulmasında və inkişafında, beynəlxalq aləmdə tanınmasında ulu öndər Heydər Əliyevin misilsiz xidmətlərindən bəhs edib.

UNESCO yanında daimi nümayəndəliyimizin rəhbəri Anar Kərimov 20 Yanvar hadisələrinin qəhrəmanlıq salnaməsi olduğunu vurğulayıb. Bildirib ki, 29 il əvvəl - Qanlı Yanvar günü tanklar, ağır artilleriya Azərbaycan xalqının iradəsini, müstəqillik uğrunda mübarizə əzmini qıra bilmədi. Əksinə, daha da alovlandırdı. Yanvar şəhidlərimiz bir daha göstərdilər ki, xalqımız ata-babalarımızın müstəqillik ruhunu davam etdirirlər.

Qeyd edilib ki, 20 Yanvar şəhidləri suverenlik naminə qəhrəmanlığımızın rəmzi kimi yaddaşlarda həkk olub. Ulu öndər Heydər Əliyev həmişə müstəqilliyimizin əbədi olmasını vurğulayıb. Azərbaycan diplomatları bu müstəqilliyin əbədi olması üçün əlindən gələni əsirgəməyəcək.

AZƏRTAC

*Arriqo Bonifaço:*

# Dünya ictimaiyyəti 20 Yanvar faciəsinə diqqət yetirməlidir

**20 Yanvar faciəsi Azərbaycan xalqının tarixində həm kədərli, həm də şərəfli gün kimi yazılıb.**

AZƏRTAC xəbər verir ki, bu sözləri Romanın Sapienza Universitetinin doktorantı Arriqo Bonifaço deyib.

Bildirib ki, 20 Yanvar faciəsi Azərbaycan xalqının müstəqillik əzmini qıra bilmədi.

“Avropa ictimaiyyəti, siyasətçilər, jurnalistlər, ümumiyyətlə, dünya ictimaiyyəti bu hadisəyə diqqət yetirməlidir. Bu hadisəyə həsr olunan tədbirlər Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından xüsusi əhəmiyyətə malikdir.

Azərbaycana səfər etdiyini deyən doktorant, ölkəmizin tarixi, mədəniyyəti ilə yaxından tanış olduğunu da qeyd edib.

AZƏRTAC

# 20 Yanvar hadisələrinin təşkilatçıları çirkin məqsədlərinə nail ola bilmədilər

*Londonda 20 Yanvar şəhidlərinin xatirəsi anılıb*

**Londonda 20 Yanvar şəhidlərinin xatirəsinə həsr edilmiş anım tədbiri keçirilib.**

Azərbaycanın Böyük Britaniyadakı səfirliyi və Londonda fəaliyyət göstərən Azərbaycan Dostluq və Mədəniyyət Evinin təşkil etdiyi tədbirdə əvvəlcə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Azərbaycanın dövlət himni səsləndirilib.

Ölkəmizin Böyük Britaniyadakı səfiri Tahir Tağızadə 20 Yanvar faciəsi haqqında məlumat verib. Qeyd edilib ki, həmin dövrdə bir çox sovet ölkəsində oxşar hadisələr baş verib, lakin bunlardan ən qanlısı Bakıda törədilib. Əvvəlcədən planlaşdırılmış bu qanlı hadisə xalqımızın azadlıq əzminin sındırılmasına yönəldilmişdi. Lakin bu əməli törədənlər çirkin məqsədlərinə nail ola bilmədilər və xalqımız öz azadlığını, müstəqilliyini qurbanlar bahasına əldə etdi.

Digər çıxış edənlər - Azərbaycan Evinin rəhbəri Əli Təkin Atalar, Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunun “Azərbaycan Xalq Cümhuriyyəti tarixi” şöbəsinin müdiri Nigar Maksvell sovet silahlı qüvvələrinin Azərbaycan xalqına qarşı törətdiyi və öz qəddarlığı ilə seçilən hərbi təcavüzdən söhbət açıblar.

Sonra Qanlı Yanvar hadisələrinə həsr olunmuş sənədli film nümayiş etdirilib.

Mərasimdə şəhidlərimizin əziz xatirəsinə tarda ifalar səsləndirilib, ehsan süfrəsi açılıb.

AZƏRTAC

# Sankt-Peterburqda 20 Yanvar qurbanlarının xatirəsi anılıb

**Sankt-Peterburqda 20 Yanvar faciəsinin 29-cu ildönümü münasibətilə anım mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Sankt-Peterburqdakı Baş konsulluğunun təşkil etdiyi tədbirdə diaspor üzvləri, Rusiyanın şimal paytaxtının ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Mərasim iştirakçıları 20 Yanvar şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Baş konsul Sultan Qasımov çıxışında qeyd edib ki, 1990-cı il yanvarın 20-nə keçən gecə Azərbaycanın müasir tarixinə ən böyük faciələrdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq salnaməsinin parlaq səhifəsi kimi daxil olub. Konsul vurğulayıb ki, 20 Yanvar hadisələri öz miqyası, xarakteri və mahiyyəti etibarilə görünməmiş cinayət idi. Azərbaycanın lideri Heydər Əliyev həmin günlər Moskvada idi. Faciədən bir gün sonra Ulu Öndər ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək sərt bəyanatla çıxış edib və milli məsələlərin zorakı yollarla həlli cəhdlərini pisləyib. Məhz Heydər Əliyev öz xalqına sədaqət, mərdlik və mətanət nümayiş etdirərək bu dəhşətli faciə barədə həqiqətləri bütün dünyaya yayıb. “İndi Azərbaycan Respublikası suveren, müstəqil dövlətdir. 20 Yanvar faciəsi qurbanlarının xatirəsi əbədi olaraq qəlbimizdə yaşayacaq”,- deyə S.Qasımov vurğulayıb.

Matəm tədbirində “Sankt-Peterburq Azərbaycan Milli-Mədəni Muxtariyyəti” ictimai təşkilatının sədri Vaqif Məmişov çıxış edib.

Sonra tədbir iştirakçıları 20 Yanvar faciəsi haqqında sənədli filmə tamaşa edib, 20 Yanvar faciəsini əks etdirən fotosərgi ilə tanış olublar.

AZƏRTAC

*Yefim Abramov:*

# Xocalı haqqında həqiqəti milyonlarla insan bilməlidir

**STMEQİ Beynəlxalq Xeyriyyə Fondunun saytında İsraildə yaşayan rejissor və dramaturq Yefim Abramov ilə müsahibə dərc edilib.**

AZƏRTAC xəbər verir ki, Yefim Abramov həmin müsahibədə “Anım günü” ümumi sərlövhəsi altında birləşdirilmiş əsərləri barədə danışıb. Yazıçı deyib: “Bu əhvalatlar mənə doğma və yaxın insanlar, mənim doğma şəhərim Bakı barədədir”.

Şairə Leyla Bəyimin həmmüəllifliyi ilə yazılmış və Xocalı hadisələrinə həsr edilmiş “Qara nərgizgülləri” povesti barədə söhbət açan dramaturq qeyd edib ki, bu əsər onların hər ikisinin yaradıcılığında xüsusi yer tutur. Y.Abramov deyib: “Leyla Bəyim Çexiyada, mən isə İsraildə yaşayıram. Buna baxmayaraq, hər ikimiz Vətəndə, Bakıda, Azərbaycanda baş verən hadisələri daim izləyirik. Biz gündə bir neçə dəfə zəngləşir, respublikamızda, Bakıda baş verən hadisələri müzakirə edirik. Bildiyiniz kimi, mən “Azərbaycan-İsrail” Beynəlxalq Assosiasiyasının işində yetərincə fəal iştirak edirəm. Assosiasiyanın baş direktoru Lev Spivak ilə dostluq edirik. O, iki ölkənin dostluğu üçün çox iş görür”.

Yazıçı xatırladıb ki, həmin povest əsasında pyes yazılıb və bu ilin fevral ayında, Xocalı faciəsinin növbəti ildönümü münasibətilə Bakıda həmin pyesin premyerası olacaq. Y.Abramov ümidvar olduğunu bildirib ki, “Qara nərgizgülləri” povesti əsasında bədii film çəkiləcək. O deyib: “Filmin ssenarisi artıq hazırdır. Qəti əminəm ki, bu povest əsasında bədii film çəkilməsi zəruridir. Çünki bu mövzu təkcə bizim respublikaya aid deyil, bu, bizim xalqın, Bakıya və Azərbaycana aidiyyəti olan hər kəsin ağrılı yeridir”.

Y.Abramov vurğulayıb ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi “Xocalıya ədalət!” beynəlxalq informasiya kampaniyası beynəlxalq birliyin bu faciədən xəbər tutması üçün nə mümkündürsə edir. Dünya birliyi bu soyqırımı barədə bilməlidir. Bu barədə sosial şəbəkələrdə, konfranslarda danışmaq, sərgilər və seminarlar keçirmək azdır. Bədii film çəkilməlidir, çünki film milyonlarla insan üçün əlyetərli olur. Bu barədə həqiqəti milyonlarla insan bilməlidir.

Yazıçı öz yaradıcılıq planları barədə söhbət açaraq qeyd edib ki, Leyla Bəyim ilə birlikdə yeddi pyes yazıblar, indi onlar çoxsaylı layihələr üzərində işləyirlər. Y.Abramov sonda deyib: “Hazırda biz Leyla ilə bərabər yazdığımız pyeslərin və povestlərin ayrıca kitab şəklində nəşr olunması ideyasını müzakirə edirik. ümidvarıq ki, Azərbaycanda bu işi görəcək bir nəşriyyat tapılacaq”.

AZƏRTAC

# Mərakeşin “Əl-Aləm” qəzetində 20 Yanvar faciəsi ilə bağlı məqalə dərc edilib

**Mərakeşin “Əl-Aləm” qəzetində “20 Yanvar - Azərbaycan milli qürur günüdür” başlıqlı məqalə dərc edilib.**

Məqalədə 20 Yanvar tarixinin Azərbaycan xalqının milli yaddaşına 1990-cı ildə keçmiş sovet ordusunun ölkəyə qarşı hərbi təcavüzü kimi yazıldığı qeyd olunur.

Yazıda 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə ən müasir silahlardan istifadə etməklə sovet ordusunun Bakıda və ölkəmizin digər şəhər və rayonlarında törətdiyi qanlı hadisələrdən bəhs edilir.

Müəllif silahlı hərbçilərin qocalar, uşaqlar və qadınlar da daxil olmaqla, dinc insanlara atəş açdığını bildirib. Vurğulanıb ki, bu vəhşilik nəticəsində yüzlərlə insan şəhid olub, yaralanıb və həbs edilib, bununla da beynəlxalq hüquq normaları kobudcasına pozulub, Azərbaycan xalqının suverenliyinə qarşı qəddar cinayət törədilib.

Məqalədə həmin dövrdə Azərbaycanın informasiya blokadasına alındığı və baş verənləri ört-basdır etmək üçün xarici KİV-lərin fəaliyyətinin məhdudlaşdırıldığı, həqiqətlərin mətbuatda yayılmasına imkan verilmədiyi bildirilir.

Eyni zamanda, yazıda Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, azərbaycanlılara qarşı aparılmış etnik təmizləmə siyasəti, işğal edilmiş torpaqlarda məscidlərimizin, tarixi memarlıq abidələrimizin darmadağın edildiyi, bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkünə çevrildiyi barədə də məlumat verilib.

AZƏRTAC

# Bölgələrimizdə anım günü

## Mingəçevir

Torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə, azadlıq hərəkatlarında şəhid olan vətən övladlarının xatirəsi xalqımız tərəfindən əziz tutulur, məzarları ziyarət edilir. Mingəçevirdəki Şəhidlər Xiyabanı illərdir ki, ziyarət məkanına çevrilib. Şəhidlərin əzizləri, övladları, yaxın qohumları ilə yanaşı şəhər ictimaiyyətinin nümayəndələri, tələbələr və şagirdlər onların məzarlarını ziyarət etməklə ehtiramlarını bildirirlər.

Mingəçevir şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılovun tapşırığına əsasən uzun illərdir təmirə və abadlığa ehtiyac duyulan Şəhidlər Xiyabanında ötən ilin dekabr ayının əvvəllərindən əsaslı quruculuq işlərinə başlanıb. "Mingəçevirtikinti" MMC-nin səyi nəticəsində 20 Yanvar abidə-kompleksinin üzəri rənglənərək əlavələr edilmişdir. Kompleksin yerləşdiyi meydanın ətrafına müasir tamet tavalar düzülmüş, səkinin üstü, pilləkənlər yenidən qurulmuş, bordürlər qoyulmuşdur. Ətrafdakı yaşıllıq zolaqlarının yan divarlarına aqlaylar düzülmüşdür.

Xiyabanda həmçinin Mingəçevir şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinin işçiləri təmizlik və abadlıq işləri aparmış, xiyabanın hasarı ağardılaraq təmirə ehtiyacı olan ərazilər bərpa edilmiş, giriş qapıları və hasarların metal çərçivələri qara rənglə rənglənərək yaşıllıq zolaqlarına qazonlar səpilmişdir.

Şəhidlərin uyuduğu xiyaban yeni görkəm almışdır.

* * *

Mingəçevir Dövlət Rəsm Qalereyasında 20 Yanvar şəhidlərinə həsr olunmuş sərgi təşkil olunmuşdur. Yanvarın 16-da baş tutan sərgidə Mingəçevir məktəblilərinin əl işlərindən ibarət rəsm nümunələri nümayiş edilmişdir. Müxtəlif səpgilərdə işlənmiş rəsm əsərləri mahiyyətcə bir məna daşıyırdı. 20 Yanvar hadisələri keçmiş sovetlər birliyi rəhbərliyinin Azərbaycan xalqına qarşı törədilmiş ən qəddar cinayət hadisəsidir. Xalqın birliyi, əzmkarlığı, qəhrəmanlığı, mərdliyi məkrli düşmənə layiqli cavabdır. Topla, tankla, öldürücü silahlarla xalqın iradəsini qırmaq olmaz! Sərgidə nümayiş olunan balaca rəssamların çəkdikləri əsərlərdən doğan yekdil fikir belə idi: Ölərik, azadlığımızı əldən vermərik. Vətən yenilməzdir!

Mingəçevir Dövlət Rəsm Qalereyasında təşkil olunan sərginin açılışında şəhər ictimaiyyətinin nümayəndələri ilə yanaşı təhsil işçiləri, ümumtəhsil orta məktəblərinin nümayəndələri, məktəblilər, şəhər sakinləri iştirak edirdilər. Tədbiri Mingəçevir Dövlət Rəsm Qalereyasının rəhbəri Böyükkişi Adilbəyli açaraq təşkil olunan sərgi haqqında fikirlərini açıqladı, yaradıcı məktəblilərə uğurlar arzuladı.

Tədbirdə iştirak edən Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov iştirakçılar qarşısında 20 Yanvar hadisələrindən ətraflı bəhs edərək xalqımızın əzmkar mübarizəsini xatırlatdı. 20 Yanvar hadisələrini xalqımızın qəhrəmanlıq tarixi kimi səciyyələndirdi. Sərginin təşkilində əməyi olan hər kəsə minnətdarlığını ifadə etdi. Ölkə rəhbəri, möhtərəm Prezidentimiz İlham Əliyevin 20 Yanvar şəhidlərinin, bütövlükdə Azərbaycan xalqının azadlığı uğrunda şəhid olanların xatirəsini əbədiləşdirmək üçün həyata keçirdiyi tədbirlərdən bəhs etdi. Şəhidlərin ruhuna Allahdan dualar dilədi.

Sonda tədbir iştirakçıları Rəsm Qalereyasında təşkil olunan rəsm əsərləri ilə tanış oldular.

* * *

20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar olaraq Mingəçevir şəhər ümumtəhsil müəssisələrində, şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılovun təsdiq etdiyi "Tədbirlər planı"na uyğun olaraq, silsilə tədbirlər həyata keçirilmişdir.

R.Mirabov adına Mingəçevir şəhər 7 №-li tam orta məktəbdə "20 Yanvar tarixi Azərbaycan xalqının azadlığı və suverenliyi naminə mübarizə rəmzidir" mövzusunda "dəyirmi masa" təşkil olunmuşdur. "Dəyirmi masa"da şagirdlərə faciə barədə geniş məlumat verilmişdir. Bundan əlavə məktəbdə "20 Yanvar - tarixin şanlı səhifəsidir" mövzusunda inşa müsabiqəsi keçirilmişdir.

İ.Qayıbov adına Mingəçevir şəhər 10 №-li tam orta məktəbdə foyedə 20 Yanvar faciəsinə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə faciəni əks etdirən fotosərgi təşkil olunmuş, divar qəzetləri və slaydlar nümayiş olunmuşdur.

D.Nağıyev adına Mingəçevir şəhər 9 №-li tam orta məktəbdə "20 Yanvar qan yaddaşımızdır" mövzusunda tədbir keçirilmişdir.

Bundan əlavə 6, 9, 10, 13 və 19 №-li tam orta məktəblərin və Mingəçevir şəhər Texniki Humanitar Liseyin şagirdləri sinif rəhbərlərinin müşayiətilə Şəhidlər Xiyabanına gələrək 20 Yanvar abidəsini və torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin məzarlarını ziyarət etmişlər.

## Daşkəsən

Daşkəsəndə 20 Yanvar faciəsinin 29-cu ildönümü münasibətilə rayon ictimaiyyətinin minlərlə nümayəndəsinin iştirakı ilə rayon



Şəhidlər xiyabanında ümumrayon anım mərasimi keçirilib. Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyevin adından Şəhidlər xiyabanındakı əbədi məşəlin önünə əklil qoyulub. Rayon rəhbərliyi, hüquq-mühafizə orqanlarının rəhbərləri, hərbçilər, ictimaiyyət nümayəndələri, sakinlər tərəfindən qəmli musiqilərin sədaları altında şəhid məzarları ziyarət olunub, şəhid qəbirlərinin üzərinə tər güllər və çiçəklər düzülüb. Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev ümumrayon anım tədbirində şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və iştirakçıları, rayon ağsaqqalları və veteranları ilə görüşüb, onların qayğıları ilə maraqlanıb.

Sonra Rayon İcra Hakimiyyətinin inzibati binasında rayon ictimaiyyətinin bütün təbəqələrindən olan nümayəndələrin iştirakı ilə ümumrayon yığıncağı da keçirilib. 20 Yanvar şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra, faciənin mahiyyətini özündə əks etdirən "Ağrılı xatirələr" adlı sənədli film nümayiş etdirilib. Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev çıxış edərək 20 Yanvar faciəsinin mahiyyətindən ətraflı söhbət açaraq bildirdi ki, Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən artıq iyirmi doqquz il ötür. Ötən illər ərzində xalqımız bu hadisəni unutmur, hər il şəhidlərimizin əziz ruhunu dərin ehtiramla yad edir. 20 Yanvar Azərbaycan tarixində təkcə faciə deyil, Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür.

## Qusar

Qusar tariximizin qanlı səhifəsi olan 20 Yanvar faciəsindən bizi düz 29 il ayırır. Qədirbilən xalqımız bu faciənin qurbanlarını heç vaxt unutmur. Ümumxalq Hüzn Günü kimi bu tarix hər il böyük ehtiramla qeyd olunur. 20 Yanvar faciəsinin 29-cu il dönümünün keçirilməsi ilə bağlı "Tədbirlər Planı"na uyğun ölkəmizin hər yerində anım tədbirləri həyata keçirilir. Qusar rayonunun idarə, müəssisə və təşkilatlarında da faciənin ildönümü münasibətilə müxtəlif tədbirlər təşkil olunmuşdur. Bu günlər rayonun mədəniyyət müəssisələri bu tədbirlərin mərkəzinə çevrilmişdir.

Rayon Mədəniyyət mərkəzində Qusar Ləzgi Dram Teatrı tərəfindən yazıçı Meyxoş Abdullanın "Əsir qadın" əsəri əsasında səhnələşdirilmiş teatr tamaşası, Heydər Əliyev mərkəzində "Qəhrəmanlıq tariximiz - 20 Yanvar" adlı anım tədbiri, rəsm qalereyasında "Vətən sizi unutmur" adlı məktəblilərin rəsm işlərindən ibarət sərgidə yüzlərlə tamaşaçı iştirak edir. Bundan başqa, uşaq incəsənət məktəbində, tarix-diyarşünaslıq muzeyində, mərkəzi kitabxanada və rayonun bütün klub, kitabxanalarında faciə qurbanlarının xatirəsinə həsr olunmuş anım tədbirləri keçirilir.

Yanvarın 20-də rayon rəhbərliyi, ictimaiyyət nümayəndələri, şəhər sakinləri "Şəhidlər xiyabanı"nda vətənin azadlığı uğrunda həlak olan şəhidlərin xatirəsini yad edəcək, onların məzarları üzərinə qərənfillər düzəcəklər. Tədbir iştirakçıları Rəsm qalereyasında təşkil olunmuş "20 Yanvar - Qanlı tariximiz" adlı sərgidə iştirak edəcəklər.

## Zaqatala

Bəşər tarixinin insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri olan "20 Yanvar" faciəsinin 29-cu ildönümü ilə əlaqədar Zaqatala rayonunda tədbir keçirilmişdir. İlk öncə Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələrinin üzvləri və rayon ictimaiyyətinin nümayəndələri şəhidlərin xatirə kompleksinə gələrək onların ölməz xatirəsini ehtiramla yad etmiş, önünə gül-çiçək düzmüşlər.

Sonra xatirə kompleksinin qarşısında tədbir davam etdirilmişdir. Tədbirdə rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadənin məruzəsi dinlənilmişdir. Məruzədə rayon rəhbəri ümummilli liderimiz Heydər Əliyevin 1990-cı il yanvarın 21-də sovet imperiyasının bütün qadağalarına baxmayaraq, Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək xalqımıza qarşı törədilmiş bu qanlı cinayətlərin təşkilatçılarını və iştirakçılarını pisləyərək bəyanat verdiyini və bu bəyanatın xalqımızın haqq səsini müdafiə edən və onun köməksiz olmadığını bütün dünyaya yayan cəsarətli bir addım olduğunu bildirmişdir. Məruzədə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərin adlarının əbədiləşdirilməsi, şəhid ailələrinə diqqət və qayğının artırılması sahəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fəaliyyətinin xalqımız tərəfindən yüksək qiymətləndirildiyini və 20 Yanvarın faciəli tərəfləri ilə birlikdə Azərbaycan tarixinə milli azadlıq, dövlət müstəqilliyi uğrunda mübarizənin zirvəsi kimi daxil olduğu xüsusi vurğulanmışdır.

## İsmayıllı

Heydər Əliyev Mərkəzində 20 Yanvar faciəsinin 29-cu ildönümünə həsr olunmuş "Heydər Əliyev idarəetmə məktəbi"nin məşğələsi keçirilib. İştirakçılar əvvəlcə mərkəzin foyesində faciənin məhrumiyyətləri və ağır nəticələrini əks etdirən sərgiyə baxıblar.

"20 Yanvar qan yaddaşımızdır!" mövzulu məşğələni giriş nitqi ilə YAP rayon təşkilatının sədri, İsmayıllı Rayon İcra Hakimiyyəti başçısının müavini Sevil Əhmədova açıb. Qeyd edib ki, tarixi düşmənlərimiz olan ermənilər Rusiyanın havadarlığı ilə hər zaman Azərbaycana münasibətdə işğalçılıq siyasəti yeridib, müstəqilliyimizin və suverenliyimizin yolunda həmişə əngələ çevrilib. 20 Yanvar faciəsidə məhz bu məkrli siyasətin qanlı təzahürüdür.

Giriş nitqindən sonra şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sovet ordusunun 20 Yanvarda törətdiyi vəhşiliklərin təsviri olan filmə baxılıb. Veteran jurnalist Valeh Salehov "20 Yanvar qan yaddaşımızdır!" mövzusunda məruzə edib.

20 Yanvar əlili, Diyallı kənd sakini Əlizadə Səmədov çıxış edərək o günlərin dəhşətindən, əliyalın soydaşlarımızın qəhrəmanlığından, dövlətimizin 20 Yanvar əlillərinə və şəhid ailələrinə göstərdiyi qayğıdan danışıb.

Ailə və Uşaqlara Dəstək Mərkəzinin direktoru Lətifə Əliyeva, rayon polis şöbəsinin əməkdaşı Rahim Orucov çıxış ediblər. Şəhər 3 saylı tam orta məktəbin XI sinif şagirdi - inşa yazı müsabiqəsinin qalibi Kəmalə Mehdiyeva dərin hissiyyatlı, zəngin məlumatlı inşasını iştirakçılara təqdim edib.

20 Yanvar hadisələrinin şahidi olmuş İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov çıxış edib. O, 20 Yanvarı tək faciə kimi yox, xalqımızın kütləvi qəhrəmanlığı kimi dəyərləndirib. Bildirib ki, dar ayaqda fərarilik edən rəhbər işçilər xalqı tənha qoydular. Bəxtimiz onda gətirdi ki, ümummilli liderimiz Heydər Əliyev yenə də xalqının yanında oldu. Tökdüyü qanlara görə Qorbaçov güruhunu lənətlədi, erməni tərkibli sovet ordusunun cinayətinin miqyasını beynəlxalq aləmə çatdırdı. Ulu öndərimiz Azərbaycana rəhbərliyə yenidən gəldikdən sonra xilaskarlıq missiyasını yerinə yetirməklə yanaşı, 20 Yanvar faciəsinə də siyasi və hüquqi qiymət verdi.

## Samux

20 Yanvar faciəsinin 29-cu ildönümü ilə əlaqədar Samux rayonunda silsilə anım mərasimləri keçirilmişdir. Ümumrayon tədbirində ilk öncə, Şəhidlər Xiyabanında ucaldılmış möhtəşəm abidə önünə dövlət rəsmiləri, təhsil, səhiyyə, mədəniyyət, idarə və müəssələrin kollektivləri, geniş ictimaiyyətin nümayəndələri və sakinlər əllərində tər qərənfillər öz qəhrəmanlarını bir dəqiqəlik sükutla, böyük ehtiramla yad etdilər.

Sonra, Samux YAP rayon təşkilatının akt zalında geniş yığıncaq keçirildi. Bir dəqiqəlik sükutdan sonra Qanlı Yanvar faciəsinə həsr olunmuş film nümayiş etdirildi. Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev çıxış edərək, 20 Yanvar gününü xalqımızın istiqlal, müstəqillik mübarizəsinin zirvəsi, oyanış və Azərbaycan xalqının tarixinə yazılmış şanlı səhifə kimi səciyyələndirərək, SSRİ rəhbərliyinin dinc, əliyalın insanlara qarşı qırğın törətməsini zorakılıq üzərində qurulmuş bir imperiyanın Azərbaycan xalqının əzmkarlığı və iradəsi qarşısında mənəvi gücsüz olduğunu vurğuladı. Məhz ümummilli lider Heydər Əliyevin səyi nəticəsində faciə dünya ictimaiyyətinə çatdırıldı. Ulu öndər onu gözləyən təhlükələrə, həyatına ola biləcək təhdidlərə rəğmən, əsl vətəndaşlıq nümunəsi göstərərək ağır gündə öz xalqının yanında oldu, onun səsinə səs verdi. Sovet İttifaqının dinc insanlara qarşı törətdiyi qırğını bütün çılpaqlığı ilə ifşa etdi, siyasi və hüquqi qiymət verdi.

Ulu öndər ikinci dəfə hakimiyyətə qayıdışından sonra Milli Məclisin 1994-cü il martın 29-da qəbul etdiyi qərarla 1990-cı il 20 Yanvar faciəsinə tam siyasi-hüquqi qiymət verdi.

## Göyçay

Göyçay Rayon Uşaq Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı, Gənclər və İdman İdarəsinin, Gənclər Mərkəzinin dəstəyi ilə baş tutan tədbirdən öncə mərkəzin foyesində 20 Yanvar faciəsinə həsr olunmuş rəsm sərgisinə baxış keçirilib. Rəsm əsərlərində imperiya buxovlarından azad olmaq istəyən xalqın harayı bütün dolğunluğu ilə iştirakçıların diqqətini çəkib.

Rayon ziyalılarının, ağsaqqalların, müəllimlərin, gənclər və idmançıların iştirak etdiyi mərasimdə 20 Yanvar qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hüzn tədbirində məktəblilər tərəfindən "20 Yanvar - Azadlığa gedən yol" adlı kompozisiya nümayiş edilib, şəhidlər haqqında şeirlər söylənilib.

Uşaq Gənclər İnkişaf Mərkəzinin direktoru Zahidə Mirzəyeva çıxış edərək 20 Yanvar hadisələri barədə geniş məlumat verib. Faciənin başvermə səbəbləri və nəticələrindən, bu qanlı hadisəyə siyasi qiymət verən ümummilli lider Heydər Əliyevin böyük şücaətindən, şəhid ailələrinə, əlillərə göstərilən dövlət qayğısından danışıb. Vurğulanıb ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə təpədən dırnağadək silahlanmış imperiya ordusunun əliyalın insanları güllələbaran etməsi, bu zaman günahsız soydaşlarımızın şəhid olması Azərbaycanın müstəqillik yolunda mübarizəsinin ən şanlı səhifələrindəndir.

Çıxışlarda eyni zamanda 20 Yanvar faciəsini törədənlərin məkrli əməllərindən, şəhidlərimizin adlarının əbədiləşdirilməsi istiqamətində dövlətin atdığı səmərəli addımlardan danışılıb.

**"Respublika".**

# 20 Yanvar faciəsi qurbanlarının xatirəsi AzMİU-da anılıb





Azərbaycan Memarlıq və İnşaat Universitetinin 1 saylı korpusunda torpaqlarımızın bütövlüyü uğrunda həlak olmuş universitetin tələbə, məzun və əməkdaşlarının xatirəsinə həsr olunmuş memorial xatirə kompleksi - "Şəhidlərin xatirə guşəsi"nin önündə 20 Yanvar faciəsinin 29-cu ildönümünə həsr olunmuş anım mərasimi keçirilib. Rektorluğun, professor-müəllim heyətinin, tələbələrin qatıldığı tədbirdə 20 Yanvar faciəsində həyatlarını itirmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.



AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda baş verənləri yada salıb, sovet ordusunun paytaxtda, eyni zamanda bölgələrdə həyata keçirdiyi qətliamdan, günahsız insanların həyatlarını itirməsindən danışıb. Rektor qeyd edib ki, sovet ordusunun hərbi birləşmələri keçmiş sovetlər birliyinin rəhbəri Qorbaçov başda olmaqla, SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, torpaqlarımıza iddia edən Ermənistanın siyasətinin dəstəklənməsinə, o zamankı respublika rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz olaraq ayağa qalxmış xalqa divan tutdu, böyük itkilər verdik, günahsız insanlar şəhid oldu. O vurğulayıb ki, həmin müdhiş gecədə həlak olan vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazıblar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açıblar.

Gülçöhrə Məmmədova 20 Yanvar faciəsinə ilk dəfə ümummilli lider Heydər Əliyev tərəfindən hüquqi-siyasi qiymət verildiyini xatırladıb, xalqımızın tarixində baş vermiş bütün faciələrin, eyni zamanda 20 Yanvar faciəsinin beynəlxalq ictimaiyyətə çatdırılmasının vacibliyini vurğulayıb, tələbələrə bu işdə fəal olmağı tövsiyə edib.

Rektorun çıxışından sonra ictimai fənlər kafedrasının müəllimi Gülarə Abbasova, nəqliyyat fakültəsinin 1-ci kurs tələbəsi Məhbubə Nağızadə, MİT fakültəsinin 3-cü kurs tələbəsi Əmrah İsmayılov yaxın keçmişimizin qanlı səhifəsi olan 20 Yanvar faciəsi barədə fikirlərini paylaşıblar.

Bildiriblər ki, Azərbaycan tarixinin ən şərəfli və həm də ən faciəli anlarından olan 20 Yanvar milli azadlıq hərəkatının başlanğıcı, müstəqilliyə doğru irəliləyişimizin əsası olub.

Anım mərasimindən sonra tədbir iştirakçıları "Şəhidlərin xatirə guşəsi"nin önünə tər qərənfil dəstələri qoyub, şəhidlərin xatirəsini ehtiramla anıblar.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**

# 20 Yanvar faciəsinə həsr edilmiş tədbir





20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümünün keçirilməsi ilə bağlı Azərbaycan Respublikası təhsil nazirinin təsdiq etdiyi Tədbirlər Planına əsasən Nərimanov rayonu 45 saylı tam orta məktəbdə "20 Yanvar qanlı tariximiz" mövzusunda tədbir keçirildi. Tədbirin başlamasından öncə dəvət olunmuş qonaqlar məktəbin foyesində şagirdlər tərəfindən hazırlanmış faciəni əks etdirən stendlər, əl işləri ilə tanış oldular və bu əl işləri tədbir iştirakçılarında böyük təəssürat yaratdı. Sonra tədbir Azərbaycanınn Dövlət Himninin səslənməsi ilə başladı, şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Məktəbin şagirdləri 20 Yanvar faciəsini əks etdirən kompozisiyalarla çıxış etdilər.



Sonra söz **45 saylı məktəbin direktoru Nəcibə Axundovaya** verildi. Nəcibə xanım qeyd etdi ki, 1990-cı ilin 20 yanvarı xalqımızın yaddaş salnaməsinə əbədi olaraq hüzn və qürur anı kimi həkk olunmuşdur.

O dövrdə, 20 Yanvar günündə Azərbaycan xalqının başına gətirilən dəhşətli qırğınla bağlı hamıdan əvvəl Moskvadan ulu öndər Heydər Əliyev bəyanat verdi. İmperiyanın paytaxtı Moskvada xüsusi nəzarət altında ola-ola, özünün və ailəsinin həyatını böyük təhlükə qarşısında qoyaraq hadisədən dərhal sonra, 1990-cı il yanvarın 21-də oğlu İlham Əliyevlə birlikdə ölkəmizin Moskvadakı daimi nümayəndəliyinə gəldi, təcavüzə kəskin şəkildə öz etirazını bildirdi. Dünyanın aparıcı KİV təmsilçiləri qarşısında çıxış edərək 20 Yanvar faciəsində insanlara qarşı yönəldilən qırğına siyasi qiymət verilməsini, günahkarların cəzalandırılmasını tələb edən bəyanat verdi. Ulu öndərin Moskvadakı bu çıxışı Azərbaycan xalqının birliyini, həmrəyliyini daha da möhkəmləndirmişdir. Bu gün Azərbaycan cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə müstəqillik yolunda inamla irəliləyir. Müstəqillik yolunda həlak olmuş şəhidlərimizin ailələrinin sosial müdafiəsini daim öz diqqətində saxlayır, mənzil və digər mühüm məsələlərinin həllini təmin edir. Şəhidlərimizin istək və arzuları yerinə yetirilib. Qarabağda həlak olan qəhrəmanlarımız-Mübariz İbrahimov, Raqub Orucov, Sənan Axundov və başqalarının da arzuları çin olacaq, torpaqlarımız azad olacaq, onların qanı yerdə qalmayacaq. Bu gün isə gənc nəslin vəzifəsi daha yaxşı oxuyaraq Azərbaycana əsl vətəndaş olmaqdır.

Tədbirdə geniş məruzə ilə çıxış edən Nərimanov Rayon İcra Hakimiyyəti başçısının müavini İradə Mahmudova, Azərbaycan Mətbuat Şurasının sədr müavini Umud Rəhimoğlu, Nərimanov Rayon YAP Qadınlar Şurasının sədr müavini Məhəbbət İbrahimova, Milli Qəhrəman Raqub Orucovun həyat yoldaşı Sevinc Alızadə çıxışlarında tədbirin təşkilatçılarına öz dərin təşəkkürlərini bildirdilər və qeyd etdilər ki, 20 Yanvar gecəsində baş verən qanlı hadisələr məktəb şagirdlərinin əl işlərində, göstərdikləri kompozisiyalarda ən xırda detallarına qədər öz əksini tapıb.

Tədbirdə iştirak edən şəhid anaları tədbirin təşkilatçılarına öz minnətdarlıqlarını bildirdilər, dövlətimizə, ölkə başçısı cənab İlham Əliyevə şəhid ailələrinə göstərdiyi hərtərəfli diqqət və qayğıya görə öz razılıqlarını dilə gətirdilər.

**Əli SADIQOV,**
**"Respublika".**

# Bakıda və Riqada yanvarın 20-də törədilmiş faciələr anılıb

**Azərbaycanın Latviyadakı səfirliyi və Riqada yerləşən Barrikada Muzeyinin birgə təşkilatçılığı ilə 1990-cı ildə Bakıda və 1991-ci ildə Riqa şəhərində törədilmiş 20 Yanvar faciələrinin birgə anım tədbiri keçirilib. Tədbir hər iki ölkədə eyni gündə baş verən faciə qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.**



Latviya ictimaiyyəti, hökumət nümayəndələri və Azərbaycan icmasının tanınmış şəxslərinin iştirakı ilə keçirilən tədbirdə əvvəlcə Riqada, sonra Bakıda törədilmiş 20 Yanvar faciəsinə aid sənədli film nümayiş etdirilib.

20 Yanvar hadisəsinin canlı şahidi olduğunu qeyd edən Azərbaycanın Latviyadakı səfiri Cavanşir Axundov 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş Sovet İttifaqının qoşun hissələrinin Azərbaycanda milli azadlıq hərəkatını boğmaq üçün Bakı şəhərinə yeridilərək dinc əhaliyə divan tutduğunu və yüzlərlə insanı qətlə yetirdiyini söyləyib. Hər iki ölkədə baş vermiş oxşar faciələr heç vaxt unudulmayacaq və yaddaşlara qanla yazılmış azadlıq günü kimi dəyərləndirən səfir Azərbaycan və latış xalqlarının iradəsi sayəsində tarixin dəyişdiyini vurğulayıb. Xüsusi qəddarlıqla törədilən bu cinayətin təfərrüatlarından bəhs edən səfir həlak olanlar arasında qadınlar, uşaqlar və qocaların da olduğunu bildirib. Tankların qarşısına əliyalın çıxan xalq əzmini nümayiş etdirib. Azərbaycan qadınları da ərlərindən, atalarından, oğullarından geri qalmadan ölüm mübarizəsinə qoşularaq şücaət göstəriblər. Lakin qabaqcadan hazırlanmış bu təcavüz aktı Azərbaycan xalqının demokratiya, milli azadlıq və ərazi bütövlüyü uğrunda əzmini qıra bilməyib.

Bir il sonra eyni hadisənin 20 Yanvar tarixində Riqada baş verdiyini qeyd edən C.Axundov xalqlarımızın bu zamana qədər sovet ideologiyasına əsaslanan yalan və saxtakarlıqlarla dolu bir cəmiyyətdə yaşadığına bir daha əmin olduğunu qeyd edib.

Azərbaycanda törədilən bu qanlı hadisəyə ilk olaraq ümummilli lider Heydər Əliyevin münasibət bildirdiyini qeyd edən səfir deyib ki, faciədən bir gün sonra ulu öndər Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək hadisəni kəskin şəkildə pisləyərək Kommunist Patiyası sıralarından çıxdığını bəyan edib. Ümummilli liderin hakimiyyətə qayıdışından sonra isə qanlı Yanvar hadisələrinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilib.

Barrikada Muzeyinin direktoru Renars Zalais Azərbaycanda törədilən 20 Yanvar faciəsinin 1991-ci ildə Riqada baş verən hadisələr ilə oxşarlıq təşkil etdiyini bildirib. 20 Yanvar tarixinin hər iki xalqı birləşdirdiyini qeyd edən direktor bu tarixin hər iki ölkədə azadlıq və demokratiyanın müdafiəsi naminə həlak olanların xatirəsinin anım günü olduğunu söyləyib.

Həmin gün Riqaya yeridilən sovet qoşun hissələrinin qabağını almaq üçün şəhərdə müxtəlif blok və barrikadaların qurulduğunu qeyd edən direktor bu barrikadaların qurulmasında həmin vaxt Riqada yaşayan çoxlu sayda azərbaycanlının da iştirak etdiyini deyib.

1990-92-ci illərdə Latviya xalq cəbhəsi hərəkatının sədri Romualds Razuks çıxış edərək yaradılmış informasiya blokadası səbəbindən Azərbaycandakı hadisələrdən az məlumatlı olduqlarından azadlıq qələbəsinin belə faciəvi qazanılacağını təsəvvür etmədiklərini vurğulayıb. "Biz elə bilirdik ki, Moskva ilə danışıqlarda hər şeyi sülh yolu ilə həll edəcəyik. Lakin 1991-ci ilin qanlı yanvar günündən bir neçə ay əvvəl demokratiyanın sülhlə qazanılmayacağını anladıq" deyən partiya sədri hər iki xalqın qanla əsas dəyərini - öz müqəddəratını həll etmək ixtiyarını qazandığını qeyd edib.

Latviya prezidentinin etnik azlıqlar üzrə müşaviri Roman Əliyev də çıxış edərək ötən əsrin son onilliyində baş vermiş və tarixə Qara Yanvar kimi keçmiş həmin günü Azərbaycan və latış xalqlarının bənzər azadlıq mübarizəsi adlandırıb. Latış xalqı heç vaxt bu tarixi unutmayacaq, çünki məhz Bakı faciəsi onları müəyyən mənada xilas etdi. Bakıda baş vermiş qətliam bir ildən sonra Riqada təkrarlanıb. Riqanın "barrikada günləri" rəsmi Moskvaya bir daha sübut etdi ki, insanlar azadlıqları uğrunda sonadək gedəcəklər. "Mən 1990-cı ilin 20 Yanvar tarixini yaxşı xatırlayıram. Mən həmin gecə barədə latış dostlarıma informasiya verəndə onlar bu qəddarlıqdan dəhşətə gəlmişdilər. Biz, Latviya azərbaycanlıları barrikadalarda latış xalqı ilə birlikdə keşik çəkirdik, biz ayrılmaz idik. Biz bilirdik ki, Qara Yanvar şəhidləri qanını boşa axıtmayıb. Bu gün xalqımız onların - azadlıq uğrunda can verənlərin əziz xatirəsini yaşadır", - deyə o bildirib.

**Qədir ASLAN,**
**"Respublika".**

# AZAL-dan qış aksiyası: Valideynləri ilə səyahət edən uşaqlara pulsuz aviabilet

**Azərbaycan Hava Yolları (AZAL) ailəsi ilə səyahət edənlər üçün qış aksiyası elan edir.**

2019-cu il **fevralın 1-dən 28-dək** olan tarixlərə iki böyük üçün (sərnişinlərin valideynlər və qəyyumlar olması şərtilə) aviabilet aldıqda, aviaşirkət eyni uçuşa 12 yaşadək bir uşağa pulsuz aviabilet təqdim edir.

Aksiya aviaşirkətin göstərilən tarixlərdə beynəlxalq aviareyslərinin həyata keçiriləcəyi bütün istiqamətlərə şamil edilir.

Biletləri **yanvarın 21-dən** etibarən AZAL-ın kassalarında, aviaşirkətin rəsmi agentliklərində və *www.azal.az* saytında təxsis etmək və əldə etmək mümkündür. Uşağa pulsuz aviabiletin verilməsi üçün valideynlər səyahət edən sərnişinlərin sənədlərini *callcenter@azal.az* elektron ünvanına göndərərək çağrı mərkəzinə müraciət edə və ya aviaşirkətin rəsmi satış kassalarına yaxınlaşa bilərlər.

Aksiya çərçivəsində sərnişinlər AZAL Miles bonus proqramından istifadə edə bilərlər. AZAL Miles bonus proqramı barədə ətraflı məlumat aviaşirkətin *www.miles.azal.az* saytında təqdim edilmişdir. Proqram iştirakçısı olmayan şəxslərə *http://ffj2.loyaltyplus.aero/j2loyalty/register.jsf?lang=az* keçidi vasitəsilə qeydiyyatdan




keçməyi təklif edirik.

Aviabiletlərin alınması ilə əlaqədar və ətraflı məlumat üçün aşağıdakı telefon nömrələrinə müraciət edilməlidir:

(+99412) 598-88-80 (Azərbaycandan zənglər üçün qısa nömrə: *8880)

Elektron poçt: *callcenter@azal.az*

WhatsApp: (+99450) 437-40-82 (yalnız yazılı müraciətlər üçün, bu nömrəyə zənglər qəbul edilmir)

AZAL Miles bonus proqramına dair sualları *azalmiles@azal.az* ünvanına, yaxud *www.azal.az* saytında doldurulan əlaqə forması vasitəsilə göndərə bilərsiniz.

**"Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidməti.**

## FÜZULİ RAYON KOMMUNAL MÜƏSSİSƏLƏRİ KOMBİNATI 2019-cu İL ÜÇÜN

## AÇIQ TENDER ELAN EDİR

**LOT-1.** Horadiz şəhərinin abadlaşdırılması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

